**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**HÖKUMƏ ASLAN QIZI SƏFƏRLİ AĞASOY**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANIN DƏZGAH HEYKƏLTƏRAŞLIĞI

**İxtisas: 6215.01 – Təsviri sənət**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sevil Yusif qızı Sadıxova**
*Sənətşünaslıq üzrə elmlər doktoru, dosent*

**Rəsmi opponentlər:** **Xanlar Əhməd oğlu Əhmədov**
*Xalq Rəssamı*

**Telman İsmayıl oğlu İbrahimov**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə **“13” iyun 2016-ci il saat 11:00** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, H.Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat “**13**” **may 2016-**cı il tarixində göndərilmişdir

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru: X. Z. Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Çoxəsrlik tarixə malik olan və Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi olan heykəltəraşlıq sənətinin əhatəli məna-məzmununa və bədii-estetik tutumuna görə cəmiyyətimizdə önəm kəsb etməsi danılmazdır. Bu gün geniş küçə və meydanlara, möhtəşəm tikililərin tərtibatına, xatirə komplekslərinə yol tapan ən müxtəlif formalı monumental heykəltəraşlıq nümunələrinin mövcudluğu da bunun təsdiqidir. Təsviri sənətin digər sahələri kimi heykəltəraşlığın da bədii ifadə imkanları təkcə monumental sənət nümunələri ilə məhdudlaşmır. Daha çox özünün mövcudluğunu müxtəlif miqyaslı sərgilərdə və muzey ekspozisiyalarında sərgiləyən dəzgah heykəltəraşlığı sənətin məhz belə sahələrindəndir. Milli heykəltəraşlığımızın maraqlı səhifələrindən sayılan dəzgah plastikası çox vaxt daşıdığı məna və məzmununun fərqli forma-biçimlərdə və ən müxtəlif materiallarda ifadəsi ilə diqqət çəkir. Bu sahədə çalışan hər bir sənətkarın yaradıcılığında bu məziyyətlərin aparıcı yer tutması əsas amillərdən biridir.

Bütün inkişaf mərhələlərində özünün rəngarəng bədii keyfiyyətləri ilə zənginləşdiyini sərgiləyən Azərbaycan dəzgah heykəltəraşlığı ölkəmizin müstəqillik qazandığı illərdə də bütün mənalarda yeniləmişdir. Bununla belə heykəltəraşlığımızın bədii tutumuna görə önəmli sayılan bu sahəsinin müstəqillik dövründəki inkişaf mənzərəsi ayrıca elmi tədqiqat mövzusu olmamışdır. Məhz bu mühüm amil bu mövzunun geniş tədqiqat obyektinə çevrilməsini şərtləndirmişdir.

**Problemin öyrənilmə dərəcəsi.** Azərbaycan dəzgah heykəltəraşlığının müstəqillik dövründəki inkişaf mərhələsi ayrılıqda və geniş tədqiqat obyekti olmayıb. Bununla belə hazırda yaşayıb-yaradan və yaradıcılığı müstəqillik dövrünə təsadüf edən sənətkarlar haqqında bir neçə dissertasiya işi, monoqrafiya və albom xarakterli nəşrlərin işıq üzü gördüyünü qeyd etmək olar. Bu istiqamətdə görülən işlərin sırasında ilk növbədə Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı (XX əsr)" kitabının adını çəkmək olar[1]. Monoqrafiya

---

[1] Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. XX əsr. Bakı: Nurlan, 2004.164 s.

2004-cü ildə nəşr olunduğundan burada yalnız ölkə müstəqilliyinin ilk illərində yaradılan azsaylı işlər tədqiqat obyektinə çevrilmişlər.

Sənətşünas Gülrəna Qacarın müəllifi olduğu Görkəmli tişə ustası Ömər Eldarov haqqında monoqrafiya (2005)[2], Ziyadxan Əliyevin 2002-ci ildə çap olunmuş "Azərbaycan heykəltəraşının sənəti. Teyub Yusifov" kitabı da belə nəşrlərdəndir.[3] Həmçinin Z. Əliyevin 2012-ci ildə nəşr olunmuş "Sabir təsviri sənətdə" kitabında görkəmli satirikə həsr olunmuş heykəltəraşlıq işləri ayrıca bölmədə təhlil olunub, onun "Səməd Vurğun təsviri sənətdə" (2010) kitabında da tanınmış şairin obrazını özündə əks etdirən sənət nümunələrindən söz açılıb.[4]

2013-cü ildə Bakıda "Sərvət" devizi altında Azərbaycan rəssam və heykəltəraşlarının yaradıcılığından bəhs edən albomlar çap olunmuşdur. Bu silsilə albomlarda heykəltəraş Zivər Məmmədova, Həyat Abdullayeva, Elmira Hüseynova, Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Mirəli Mirqasımov, Tokay Məmmədov, Ömər Eldarov və Fazil Nəcəfova həsr olunmuş kitabların adını çəkmək olar.[5] Həmçinin sənətşünas Şirin Məlikovanın yazdığı "Səlhab Məmmədov" monoqrafiyasında (2012) sənətkarın həmkarı Əli İbadullayevlə birlikdə ərsəyə gətirdiyi heykəltəraşlıq işlərindən söz açılıb[6].

Rafiq Quliyevin 2013-cü ildə çap olunmuş "Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət" kitabında da heykəltəraşlığın tarixi janrında yaradılmış əsərlərdən ətraflı söz açılıb.[7] Burada müstəqillik dövründə yaradılmış əsərlər haqqında da məlumat almaq mümkündür.

Həmçinin yaradıcılığı müstəqillik illərində də davam edən heykəltəraşlar barəsində yazılan iki dissertasiyanı da qeyd etmək lazımdır. Bunlardan Samir Sadıqovun 2013-cü ildə xalq rəssamı Tokay Məmmədovun həyat və

---

[2] Gülrəna Qacar. Ömər Eldarov: Heykəltəraşlıq. Bakı, 2005. 287 s.

[3] Əliyev Ziyadxan. Azərbaycam heykəltəraşının sənəti. Teyub Yusifov. Bakı,2002. 46 s.

[4] Əliyev Ziyadxan. Səməd Vurğun təsviri sənətdə. Bakı, 2010. 151 s.

[5] Fazil Nəcəfov. Həyat və yaradıcılıq. Mətnin müəllifi Dilarə Vahabova. "Sərvət" silsiləsindən, Bakı, "Şərq-Qərb", 2013, 104 s.

[6] Məlikova Şirin. Səlhab Məmmədov. Bakı, 2012. 160 s.

[7] Quliyev Rafiq. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı: Letterpress, 2013. 220 s.

yaradıcılığından bəhs edən elmi tədqiqat işi və Fərman Qasımovun 2014-cü ildə yazdığı "Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində" adlı dissertasiya işinin adını çəkmək olar. Hər iki dissertasiyada T. Məmmədov və N. Əliyevin dəzgah heykəltəraşlığı sahəsindəki fəaliyyəti ayrıca bölmədə təhlil olunmuşdur.[8]

Bundan əlavə müstəqillik dövrünün heykəltaraşlığı və ayrı-ayrı yaradıcıların fəaliyyəti haqqında 1991-2014-cü illərdə işıq üzü görmüş kataloq, qəzet-jurnal məqalələrində yığcam məlumatlar verilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas vəzifəsi Azərbaycan plastika sənətinin ən son inkişaf mərhələsi sayılan müstəqillik dövründə dəzgah heykəltəraşlığının inkişafını ayrı-ayrı janrların və aparıcı tendensiyaların öyrənilməsi yolu ilə izləmək, bu janrların hər birinin müstəqillik dövründə yeniləşən mövzu-süjet və üslub-ifadə rəngarəngliyini müəyyənləşdirmək, onların milli heykəltəraşlıq sənətimizə verdiyi töhfələri dəyərləndirməkdən ibarətdir.

Tədqiqatın başlıca vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- müstəqillik dövrü heykəltəraşlığında janr axtarışları prosesinin hansı yaradıcı yöndə aparıldığının müəyyənləşdirilməsi;
- dəzgah heykəltəraşlığı sahəsində yaradılmış süjetli kompozisiyaların fikir daşıyıcılığının təhlili;
- tarixi janrın keçmişimizin əks olunmasında rolunun müəyyənləşdirilməsi;
- müstəqillik dövrü dəzgah heykəltəraşlığında forma-biçim və bədii ifadə axtarışlarının dəyərləndirilməsi;
- portret janrının yeni məziyyətlərlə zəngiləşməsində bədii vasitələrdən istifadənin estetik tutumla əlaqəsinin şərhi;
- dəzgah heykəltəraşlığında plastik ifadə tendensiyalarının təhlili;

[8] Qasımov F., Heykəltəraş Natiq Əliyevin yaradıcılığında kiçik plastika nümunələri. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri № 2 (14), Bakı, 2014.s.97-101.

- müstəqillik dövrü dəzgah heykəltəraşlığının Azərbaycan plastika sənəti tarixində yerinin müəyyən olunması;

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını müstəqillik dövrü dəzgah heykəltəraşlığının özünəməxsus inkişaf yolunu səciyyələndirən amillər və heykəltəraşların müxtəlif janrlardakı əsərlərinin bədii-estetik və bədii-texniki xüsusiyyətlərinin təhlili təşkil edir. Mövzunun tədqiqi prosesində Azərbaycan tişə ustalarının müxtəlif nəsillərinin dəzgah heykəltəraşlığı sahəsində əldə etdikləri uğurlar ayrı-ayrı janrların timsalında izlənilmiş, bu prosesdə xronoloji ardıcıllıqdan daha çox, yaradıcıların yeni bədii-estetik və bədii ifadə vasitələri ilə heykəltəraşlıq tariximizin inkişaf yolu təhlil olunmuşdur. Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri müddəa və qənaətlərindən faydalanılmışdır. Problemin tədqiqində tarixilik prinsipinə və başlıca olaraq tarixi-bədii metoddan müqayisəli şəkildə, paralellər aparılmaqla istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini heykəltəraşların müxtəlif nəsil nümayəndələrinin müstəqillik illərində fəaliyyəti, onların yaratdıqları əsərlərin ənənəvidən müasirliyə doğru yenilənən forma-biçim axtarışlarının və zəngin məna-məzmununun təhlili, bu yaradıcılıq axtarışlarında müəlliflərin dünyaya fərdi baxışlarının özünəməxsus dəst-xətt və üslub göstəricilərinin təhlili təşkil edir. Bunlar əsasən Azərbaycan və xarici ölkə muzeylərində, rəssamların fərdi saxlanclarında, şəxsi kolleksiyalarda qorunan, eləcə də müxtəlif illərdə dövrü mətbuatda çap olunan və indiki halda saxlanıldığı yer qeyri-müəyyən olan əsərlərdir. Onların tədqiqatda təhlili bilavasitə heykəltəraşların yaradıcılığını təşkil edən məna-məzmun zənginliyini göstərən bədii-estetik kateqoriyaların açımı kontekstində verilmişdir. Tədqiqatın pedmetini isə dəzgah heykəltəraşlığı sahəsində fəaliyyət göstərən heykəltəraşların yaradıcılığı, onların əsərlərinin forma, məzmun, üslub, dəst-xətt göstəriciləri təşkil edir.

**Tədqiqatın sərhədləri.** Tədqiqat özündə müəyyən zaman kəsiyini əks etdirir. Bu dövr Azərbaycan heykəltəraşlığının inkişaf mənzərəsinə nəzər salınmış,

janr bölgüsü aparılmış, heykəltəraşların yaradıcılığını səciyyələndirən dəst-xətt və üslub təkəmülü mövzuların şərhinə müvafiq aparılmışdır.

Bu proses Azərbaycan heykəltəraşlığının ümumi inkişafı kontekstində baş verdiyindən, onun tədqiqi həm də milli plastika sənətimizdə ənənə və müasirlik probleminin həlli və yeni məziyyətlərlə zənginləşməsi istiqamətində həyata keçirilmişdir. Müstəqillik illərini əhatə edən bu dövr sənətkarlarının yaradıcılığındakı bədii-estetik yenilənmə obyektiv şərhi və problemə elmi yanaşma yolu ilə tədqiq olunmuş, bu araşdırma Azərbaycan plastika sənətinin 1991-2015-ci illər dövründəki axtarışlarla dolu inkişaf mərhələsinə güzgü tutmağa imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi bilavasitə müstəqillik dövründə yaşayıb-yaradan heykəltəraşların yaradıcılığına əvvəllər mövcud olmuş bədii və ideoloji yanaşmalardan imtinaya meyl ilə şərtlənir və bütünlükdə bu fərqli yanaşma aşağıdakılarla ifadə olunur:

- ilk dəfə Azərbaycan sənətşünaslığında müstəqillik dövrünü əhatə edən dəzgah heykəltəraşlığı hərtərəfli-kompleks şəklində elmi təddqiqata cəlb olunmuşdur;

- ilk dəfə müstəqillik dövrünün dəzgah heykəltəraşlığının inkişafı janr müxtəlifliyi əsasında təhlil olunmuş və bədii-estetik nəticə və müddəalar çıxarılmışdır;

- ilk dəfə tədqiqata cəlb olunmuş dövrdə yaradılmış kompozisiyaların fikir daşıyıcılığının əsərlərdəki bədii-estetik təsirliyi elmi təhlilini tapmışdır;

- ilk dəfə heykəltəraşlıqda önəmli sayılan forma-biçim və bədii ifadə axtarışlarının mövzu ilə əlaqəsi tədqiqata cəlb olunmuşdur;

- ilk dəfə dəzgah heykəltəraşlığında portret janrı bədii və psixoloji tutum qaynağı kimi elmi əsaslarla öyrənilmişdir;

- tədqiqatda ilk dəfə heykəltəraşlıqda plastik ifadə daşıyıcılığı tədqiq olunmuş, bədii-estetik məziyyətləri qiymətləndirilmişdir;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın məna-məzmun yeniliyi Azərbaycan təsviri sənətinin aparıcı sahələrindən biri sayılan

heykəltəraşlığın bədii-estetik dəyərlərinin öyrənilməsinə əsaslanmışdır. Bu elmi-tədqiqat işi öz əhatəli məzmununa görə bütünlükdə müstəqillik dövründə yaradılmış dəzgah heykəltəraşlığı nümunələrinin təhlili və bu sahənin daşıdığı bədii-estetik tutumu ilə ümumi Azərbaycan plastika sənətində yerinin müəyyənləşdirilməsinə kömək edir.

Dissertasiya rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində heykəltəraşlıq və sənətşünaslıq üzrə təhsil alan tələbələrə "Heykəltəraşlıq tarixi" və "Azərbaycan incəsənət tarixi" fənlərinin tədrisində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 7 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, dörd yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 130 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, öyrənilmə dərəcəsi, məqsəd və vəzifələri, metodoloji əsasları, tədqiqatın obyekti və predmeti, eləcə də işin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Müstəqillik dövrü dəzgah heykəltəraşlığında janr axtarışları"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. I fəslin əvvəli olan ilk yarımfəsil "Dəzgah heykəltəraşlığında kiçik ölçülü kompozisiyaların ideya daşıyıcılığı" adlanır. Bu fəsildə heykəltəraşlarımızın müstəqillik dövrünə təsadüf edən yaradıcılıq axtarışları, heykəltəraşlıq sahəsində fəaliyyət göstərən müxtəlif nəsil nümayəndələrinin həm yeni mövzulara müraciəti, həm də müxtəlif

materiallardan istifadə ilə ərsəyə gətirilən əsərlərinə fərdi bədii-estetik xüsusiyyətləri təhlil olunur.

Bu istiqamətdə çox səmərəli fəaliyyət göstərən heykəltəraşlarımızdan biri də əməkdar incəsənət xadimi Akif Əsgərovdur. Heykəltəraşlıq məkanında daha çox "təəssürat ifadəçisi" kimi tanınan bu müəllifin müxtəlif mövzulu əsərlərində müraciət etdiyi motivlərin başqalarında yarada biləcəyi ilkin hiss-duyğunun çox incə plastik həllini müşahidə etmək mümkündür. Onun "Düşüncə", "Oturmuş qız", "Balerina", "Kandarda" və s. əsərlərində öz aləminə qapılmış obrazların fərdi və fərqli yaşantılarının uğurlu bədii şərhi ilə qarşılaşırıq. Bütün yaradıcılığı boyu obrazların plastik yükünü daha çox faktura-səth oynaqlığı ilə təqdim etməyə üstünlük verən müəllif fiqurların canlı və daha ifadəli görünməsinə nail olmuşdur.

Azərbaycan heykəltəraşlığının əsrlərin qovşağında baş tutan inkişaf mənzərəsini akademik Ömər Eldarovun yaradıcılığı olmadan təsəvvür etmək çətindir. Görkəmli heykəltəraşın monumental əsərləri ilə yanaşı müstəqillik illərində yaratdığı dəzgah kompozisiyaları da məna-məzmun tutumuna və plastik şərhinə görə diqqət çəkirlər.[9] Bu mənada "XX əsr" (2000), "Ağlayan qadın" (2001), "Antik motiv" (2001), "Uşaqlı qadın" (2001), "Zehnin yuxusu" (2003), "Çılpaq qadın" (2004), "Ağlın yuxusu dəhşət doğurur" (2004) və s. əsərlərinin adını qeyd etmək olar.[10] Tuncda gerçəkləşən "XX əsr" əsəri ümumi plastik həllinə görə müəllifin səmərəli olan yaradıcılığında yeni istiqamət xətti yaratmışdır. Dünyada mövcud olan bölünmüş xalqlar mövzusuna müraciət edən müəllif əsərin plastik həlli yolu ilə, yəni "bölünmüş" tək adam fiqurundan istifadə etməklə tamaşaçıya mövzunun fəlsəfi yükünü təqdim edir.

Fazil Nəcəfov isə elə əvvəlcədən yaradıcılığına hakim kəsilən milli qaynaqlara müraciətini hər bir əsərində sərgiləməkdə davam etmişdir. Onun "Qadın fiquru" (1991), "Kali-yuqa dövrü" (2000), "Kişi və qadın" (2000),

---

[9] Sadıqov S. Yaradıcılıqla zəngin ömrün 80 ili. (Heykəltəraş Ömər Eldarov haqqında) Kaspi qəzeti 2007. 19 dekabr. s.16.

[10] Sadıqov S. Ömər Eldarovun yaradıcılığında qadın obrazları. Kaspi qəzeti 2011. 9 dekabr. s. 11.

"Zamanın oyunları" (2003), "Kompozisiya" (2008), "Pişik" (2010), "Yağış tutan" (2011) və s. kompozisiyaları əslində bizi əhatə edən məkana, yaşadığımız zamana və onun insanlarına verilən "plastik suallar" toplusudur. Müəllifin əsərlərində bədii ümumiləşdirmədən bədii rəmzə kimi plastik şərhi əhatə edən təqdimatda çağdaş heykəltəraşlıq məkanı üçün qürurdoğurucu icra və düşündürücü məna-məzmun kifayət qədərdir.[11]

Ölkəmizin müstəqillik qazandığı illərdə əksər heykəltəraşlarımız yaradıcılıqlarında məna-məzmun və süjet rəngarəngliyinə nail oldular. Tokay Məmmədov, Arif Qazıyev, Əsgər Kərimov, Fuad Salayev, Akif Əsgərov, Aslan Rüstəmov, Namiq Dadaşov, Zeynalabdin İsgəndərov, Görüş Babayev kimi yaşlı nəslin nümayəndələri ilə yanaşı Natiq Əliyev, Hüseyn Haqverdiyev, Sahib Quliyev, Teyub Yusifov, Zakir Əhmədov, Əlisəfa Əsgərov, Nəriman Məmmədov, Azad Zeynalov, Emin Quliyev, Fəxrəddin Əliyev və Teymur Rüstəmov kimi orta nəsil, Mahmud Rüstəmov, Nurəli Şahbazov, Tural Rzaquliyev, Vüqar Quliyev, Məmməd Rəşidov, Fərəc Rəhmanov, Nurlan Məmmədov, Fərman Qasımov kimi gənc nəsil təmsilçiləri yaratdıqları əsərlər ilə müstəqillik dövrü plastika sənətimizin yeni bədii mənzərə almasını şərtləndirdilər.

İxtisas təhsilini V. Muxina adına Sankt-Peterburq Ali Rəssamlıq Məktəbinin "Monumental heykəltəraşlıq" şöbəsində alan Natiq Əliyev bu gün sənətsevərlərə daha çox Azərbaycanda və xarici ölkələrdə ucaldılmış monumental abidələri ilə tanışdır. Buna baxmayaraq sənətkarın yaradıcılığında bir-birindən maraqlı və çoxsaylı dəzgah plastikası nümunələri vardır. Heykəltəraşın say etibarilə kifayət qədər çox olan təkfiqurlu əsərləri mövzu rəngarəngliyi ilə yanaşı, həm də ifadə zənginliyi ilə diqqət çəkirlər. Müəllifin

---

[11]Новрузова Дж. В мастерской Фазиля Наджафова. – Международная Академия архитектуры стран Востока, Национальная Академия наук Азербайджана, Отдел истории Архитектуры, градостроительства и реставрации. Ежегодник. Сборник, посвященный памяти академика Абдул Вахаба Саламзаде. Баку, Нурлан, 2006. сс. 50-60.

“Tarazlıq”, "Sükunət", "Arfa çalan", “Dəhşət”, "Ailə", “Qadın” “Nəsil”, “Qızıl atlı”, “Çərxi-fələk”, və s. əsərləri belə nümunələrdəndir.

Adları vurğulanan bu əsərlər arasında “Ailə” kompozisiyası bədii tutumuna və özünəməxsus plastik şərhinə görə xüsusilə seçilir. Bunu şərtləndirən başlıca səbəb bu əsərin heykəltəraşın yaradıcılığında hələ ki, az-az rast gəlinən şərti-sxematik biçimdə həll olunmasıdır. Müəllifin bu mövzuya yanaşması kifayət qədər fərqlidir. Belə ki, ailə mövzusu heykəltəraşlıq üçün tanış və ənənəvi sayılsa da N.Əliyevin bu bədii şərhində ona fərqli və özünəməxsus münasibət sərgiləməyinin mümkünlüyünü göstərmişdir.

Xalq rəssamı Fuad Salayev müstəqillik illərində özünün yaradıcı potensialını “Üns” yaradıcılıq səhnəsinin qarşısında qoyulmuş “Adəm və Həvva”, “Aktyor”, eləcə də Muzey mərkəzinin yanlarında yerləşdirilmiş “Səyyah” və “Öndər” əsərləri ilə sərgiləmişdir. Müəllifin “Tarazlıq” (1992), “Qıl körpüsü” (1994), “Hərbi at” (1999), “Yüksəliş” (2001), “Kələfin ucunu axtaranlar” (1990-cı illər), “Qiyamət günü” (1990-cı illər), “Apokalipsis”, “Mübariz”, “Əyilmiş qüllə Azərbaycan rəmzi ilə”, “Meditasiya” (1990-cı illər), “Dahilik iddiası” (1990-cı illər) və s. əsərlərinin daşıdığı dərin psixoloji-fəlsəfi yükü vurğulamaq istərdik. Əslində daşıdıqları məna-məzmun yükünün önəmliyi baxımından əsərlərin ümumi tutumunu zamana və onu yaşayanlara ünvanlanmış suallar toplusu da adlandırmaq olar.

Dəzgah heykəltəraşlığı başqa həmkarları kimi Görüş Babayevin də yaradıcılığında aparıcı yer tutur. Janr əlvanlığı ilə seçilən bu əsərlərin arasında yüksək bədii-estetik tutumu ilə fərqlənən “Hindistan haqqında xatirə” (1991), “Oturan qadın” (1998), “Simurq quşu” (1999), “Su pərisi” (1998), “Əfsanə” (2000), “Güzgü” (2001), “İz” (2001), “Ruzigar” (2003), “Arfa” (2003), “Qorxmazın xatirəsinə” (2003), “Şahmat” (2004), “Mənim xatirələrimin səhifələri” (2001-2008) və s. nümunələrin adını vurğulamaq mümkündür. Adlarını çəkdiyimiz əsərlərdə müəllif plastikanın duyğulandırıcılığına daha çox onun dəst-xəttinin tanınmasını şərtləndirən axıcı-dinamik forma-biçim keçidləri ilə nail olmuşdur.

Heykəltəraş Zeynalabdin İsgəndərovun müstəqillik dövrü yaradıcılığı da janr axtarışları ilə zəngin olmuşdur. Müxtəlif mövzulara həsr olunmuş bu əsərlərin

adlarına nəzər saldıqda onların dərin fikir daşıyıcılığına malik olduqlarını görmək mümkündür. Onun müxtəlif materiallarda işlənmiş "Dahi" (1991), "Bulaq başında" (1992), "Külək" (1993), "Şərq qadını" (1994), "Tütünçü qadın" (1996), "Xonçalı qız" (1999), "Violonçel çalan qız" (2000), "Bəşərin xilaskarı" (2005) və s. əsərləri bu qəbildəndir. Əsasən plastik həllin reallığına və yapma manerasının yumşaqlığına üstünlük verən heykəltəraş, elə əsərlərinin tamaşaçı rəğbəti qazanmasını da bu inandırıcılıq və icra səmimiliyi ilə əldə etmişdir.

Sahib Quliyevin qiymətli metallarla mərməri, qraniti və daşı qoşalaşdırması ("Yuxu",1998; "İmperator", 2012; "Möcüzə", 2011), arakəsməli mina və oyma texnikası ilə metal səthini işləməsi, zənginləşdirməsi ("Şanapipik", 2005; "Ritm", 2000; "Bahar", 2002; "Mömünəxatun", 2003) yaradıcılığında bədii-texniki məziyyətlərin ifadəsinin təsdiqidir.[12] Sahib Quliyevin müstəqillik dövrü axtarışlarında süjetin daha çox bədii ümumiləşdirmə və şərti-rəmzi formalarla ifadəsi üstünlük təşkil edir.

Zakir Əhmədovun müstəqillik dövründə ərsəyə gətirdiyi əsərlərin timsalında dəst-xətt təkamülünü, ifadə rəngarəngliyini izləmək mümkündür. Bu mənada "Yalvarış" (1997), "Heyvagülü" (1998), "Fitnə" (1998), "Təlatüm" (1999), "Yeddi gözəl" (2002), "Üçlük" (2005), "Evlənmək istəyirəm" (2006), "Döyüşçü" (2012) və "Bakı küləyi" (2014) kimi plastika nümunələrində ümumi tutumun detallaşdırılmasına meyl duyulduğunu qeyd etmək olar.

Azərbaycan heykəltəraşlığının mövcud mənzərəsinə özünəməxsus rəngarənglik qatan Teymur Rüstəmovun yaradıcılığında bədii-texniki eksperimentlərin uğurlu nəticələrini, plastik şərhin ən müasir formalarını izləmək mümkündür. Müəllifin "Qəlbin güzgüsü" (1991-1992), "Sirr" (2009), "Quş" (2009), "İkili portret" (2009), "Yeni aristokrat" (2010), "Arzular ağacı" (2010), "Modern buta" (2010), "Sonsuzluq" (2010) və s. əsərlərində ənənəvi süjet və motivlərə əvvəlkilərdən fərqli yaradıcı münasibət duyulur.

---

[12] Mənsimov Elgün. Mina ilə işləyən sənətkar. "Azərbaycan" qəz., 08 iyul 2014.

Mahmud Rüstəmovun yaradıcılıq axtarışlarında mövzunun daha müasir plastik şərhinə meyl güclüdür. Onun bütün bunları həm də bədii şişirtmə yolu ilə təqdim etməsi, ümumi tutuma qrotesk işartıları qatması əsərlərinin başqalarından bütün mənalarda fərqlənməsini şərtləndirmişdir. Müəllifin “Qadın-dəvə” (1992), “Azəri Zərdüştü” (1993), “Dahi mübarizədə” (1993), “Sima № 9” (1998), “Müşahidəçi” (2002), “Yumurtabaş qadın” (2004) və “Reallığın sfinksi” (2005) əsərlərində bu cəhətləri görmək mümkündür.

Birinci fəslin ikinci yarımfəsli “Keçmişimizin əks olunmasında tarixi janrın rolu” adlanır. Sovet-kommunist rejiminin süqutundan sonra qazanılan müstəqillik nə qədər cəmiyyətin üzvlərinə xoş ovqat bəxş etsə də, yeni ictimai-siyasi şərait, müxtəlif tutumlu problemlərin mövcudluğu, eləcə də torpaqlarımızın işğala məruz qalması bu vaxta qədər incəsənətimizdə, o cümlədən də heykəltəraşlıq sənətində bir çox məsələlərin bədiiləşdirilməsini gündəliyə gətirdi. Bu mövzuların arasında ağrılı Qarabağ problemi isə sənətkarların hamısı üçün bütün mənalarda çox yeni idi. Bu gün də çoxlarının belə çətin tarixi-psixoloji tutumlu mövzunun bədiiləşdirilməsi üçün zaman tələb olunduğunu söyləmələrinin əksinə olaraq, ayrı-ayrı sənətkarlarımız yaşanan ağrılı hisslərin elə isti-isti sənət əsərinə, o cümlədən də plastikaya çevirməyin mümkünlüyünü sərgiləyə bildilər.[13]

Bu mənada xalq rəssamı Xanlar Əhmədovun yüksək vətənpərvərlik mövqeyinin nümayişi kimi dəyərləndirilə biləcək addımını xüsusi vurğulamaq olar. 1992-ci ilin soyuq fevral günlərində Ağdamda olan Xanlar Əhmədov Xocalı şəhidlərinin ora gətirilməsinə, yaşanan üzücü-tükürpədici səhnələrə şahidlik edir. Baş verənlərdən və gördüklərindən yaranan psixoloji gərginliyə münasibət göstərən heykəltəraş dərhal işə başlayır və faciənin ildönümünə, onun ölçüyəgəlməz dəhşətlərinə obrazlı “bədii güzgü” sayıla biləcək 20 heykəltəraşlıq kompozisiyası, bir o qədər də qrafik lövhə təqdim edir. 1993-cü ilin fevralında İçərişəhərdəki Müasir İncəsənət Mərkəzində sərgilənən “Fəryad”, “Ana körpəsi

---

[13] Fərəcov Savalan. “İncəsənətimizi xaricdə təmsil etmək hər sənətkar üçün fəxrdir”. Xalq rəssamı Xanlar Əhmədov haqqında // «Mədəniyyət». - 2011. 11 may. s. 15.

ilə", "Şəhid", "Bu da son", "Ağbirçək", "Ağsaqqal", "Ağrı", "Donmuş ana körpəsi ilə", "Bir güllə ilə", "Son hücum" və s. əsərlərinin timsalında faciənin bədiiləşdirilməsi kimi yaradıcı vəzifənin çox yüksək bədii həllini görmək mümkündür.

Sahib Quliyev yaradıcıların ən fəalı olmaqla tarixi mövzulara rəngarəng materiallarda yaddaqalan plastik görkəm verən sənətkarlardandır. Onun tarixi janrda ərsəyə gətirdiyi əsərlərin sırasında "Süvari qadın" (1991), "Şirin" (1995), "Tomris" (1997), "Atlı" (2002), "Ram edilmiş" (2000), "Atlı qadın" (2004), "Mömünəxatun" (2003), "Atilla" (2012), "Dədə Qorqud" (2014), "Şirvanşah Şeyx I İbrahim" (2013) və s. kompozisiyaların adını çəkmək olar.

Tişə ustalarımızın müxtəlif nəsillərinin yaradıcılığında zaman-zaman tarixi janrlı dəzgah heykəltəraşlığı nümunələrinin yaradıldığını qeyd etmək olar. Arif Qazıyevin sözün əsl mənasında onun sənətkarlığı ilə vətənpərvərliyinin vəhdətinin ifadəsi olan "Nuru paşa" (2014) əsərində Azərbaycan tarixində ölçüyəgəlməz dərəcədə rolu olan türk hərbçisinin obrazı yaradılmışdır. Müəllifin əslində 1918-ci ildə minlərlə azərbaycanlını genosiddən xilas edən, paytaxt Bakını daşnak-bolşevik işğalından azad edən Nuru paşanın obrazına müraciəti çox təqdir olunandır. Türk sərkərdəsinin əməllərinə müvafiq qürurlu obrazını yaratmaq məqsədilə heykəltəraş onu at üzərində təsvir etmişdir.

Mübariz Əmiraslanov "İstiqlal" (2014) və "Azadlıq" (2014) əsərlərində mövzunun reallığa tapınan rəmzi-şərti həllini tapmağa çalışmışdır. "İstiqlal" əsərinin kompozisiyasını məftilli sərhədləri dağıdaraq irəli şığıyan üç atlı təşkil edir.

Tarixi tutumlu digər əsərlərin sırasında Yusif İbrahimovun "Bəhram Gur" (2013), Namiq Dadaşovun "Bir əsrlik tarix" (2012) və "Daş tarixi" (2014), Fəqan Əhmədovun "İçərişəhər" (2014), Nəriman Məmmədovun "Gəmiqaya" (2014) və s. adlarını çəkmək olar.

Saysız-hesabsız insan ölümünə, şəhərlərin dağıdılmasına səbəb olan müharibə obrazını İsa Məmmədxanovun ("Müharibə", 2001) əsərində çox qəribə görkəmli varlıq kimi təsvir etməsi çox məntiqli qəbul olunur. Müəllif,

təxəyyülünün nəticəsi olan quş başlı, şir bədənli əcaib məxluqatı müharibə rəmzi kimi təqdim edib.

**“Müstəqillik dövrü dəzgah heykəltəraşlığında forma-biçim və bədii ifadə axtarışları”** adlanan ikinci fəsil “Müstəqillik dövrü heykəltəraşların yaradıcılığında portret janrı” adlı birinci yarımfəsil ilə başlayır. Əgər portret janrının müstəqillik dövründəki təkamülünə nəzər yetirsək, onda sənətkarların daha çox həyat müşahidələrinə əsaslandıqlarını söyləyə bilərik. Hazırda istisnasız olaraq Azərbaycanın bütün heykəltəraşları portret janrına müraciət edirlər.

Respublikanın tanınmış tişə ustası Tokay Məmmədovun yaratdığı “Bəstəkar Üzeyir Hacıbəylinin portreti” (2009) və “Bəstəkar V.A. Motsartın portreti” (2009) yüksək bədii tutumuna görə portret janrının maraqlı nümunələri sayıla bilər. Hər iki əsər musiqiçiyə həsr olunsa da, onlar həm icra materialına, həm də kompozisiya həllinə görə bir-birindən fərqlənirlər. Bütün ömrünü Azərbaycan musiqisinin yükünü daşımağa həsr etmiş Üzeyir Hacıbəylinin portreti dahi bəstəkara bu vaxta qədər həsr olunmuş digər əsərlərdən seçilir. Müəllifin avstriyalı bəstəkar V. A. Motsarta həsr etdiyi portret bütün mənalarda yuxarıda şərh olunan əsərdən fərqlənir. Bunu həm portretin ümumi kompozisiya quruluşu ilə yanaşı, onun fərqli materialda – ağacda gerçəkləşməsi də təsdiqləyir. Portretin bədii həlli üçün ağac materialını seçən müəllif faktura ekspressiyasını, yaşantı təzadlarını daha təsirli göstərmək imkanı əldə edib.

Heykəltəraş Zeynalabdin İsgəndərovun yaratdığı “Cabbar Qaryağdıoğlu” (1998) əsəri xəyalən bizi XX əsrin birinci yarısına aparır. Milli koloriti geyimindən duyulan bu portretdə həmin dövrün ən görkəmli xanəndələrindən biri təsvir olunmuşdur. Azərbaycan muğamlarının əvəzsiz ifaçısı olan xanəndəni yaradıcı prosesdən kənar görüntüyə gətirən heykəltəraş, onu xəyala dalmış vəziyyətdə təqdim etmişdir. Onun yumşaq təbəssümə bələnmiş işıqlı çöhrəsini o dövrdə geniş yayılmış “dəkkə” formalı papaq tamamlayır.

Dəzgah heykəltəraşlığı sahəsində davamlı axtarışlar aparan Əsgər Kərimovun portretlərində təsvir etdiyi obrazlarını psixoloji yaşantılara bələyə bilməsi ilə diqqət çəkir. Onun “Kədər”(1991) əsəri belə gözoxşayan plastika

nümunələrindəndir. Heykəltəraşın bu portreti onun insan psixologiyasına nüfuzetmə bacarığını çox qabarıq əks etdirir. Müəllif məqsədini gerçəkləşdirmək üçün gənc qadını model seçmişdir.

Bütün yaradıcılığı boyu müxtəlif janrlı əsərlərinin məna-məzmun yükünə, müvafiq plastik şərhinə üstünlük verən Görüş Babayevin yaratdığı portretlər də diqqət çəkir. Bu mənada “Qızım” (1993), “Məhsəti Gəncəvi” (1995), “Şahzadə” (1999), “Əfsanə” (2000) və “Qorxmazın xatirəsinə” (2003) əsərlərini heykəltəraşın öz düşüncələrinə obrazlı, plastik improvizələrlə görkəm verə bilmək bacarığının təsirli görüntüsü hesab etmək olar.

Xalq rəssamı Natiq Əliyevin davamlı yaradıcılıq axtarışlarının nəticəsi olan portretləri xüsusi əhəmiyyət kəsb edir. Onun yaratdığı portretlərdə dövlət xadimlərinin, zəhmətkeş, cəfakeş və cəsur insanların, xalqın görkəmli ziyalılarının yüksək bədii dəyərə malik obrazları ilə tanış oluruq. Natiq Əliyev işlədiyi portretlərdə yığcamlığı ilə seçilən kompozisiyanın zahiri statikliyini aradan qaldırmağa çalışır, bunun üçün plastika oynaqlığı ilə dolğun psixoloji obrazlar yaradır. Onun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr olunmuş portretində (2004) vurğuladığımız plastika konstruktivliyi lakonik formalarla ifadə olunmuşdur. Prezident Aparatını bəzəyən və obrazın sakit və təmkinli təqdimatı ilə diqqət çəkən bu mərmər portretdə onun daşıdığı ağır məsuliyyətdən qaynaqlanan gərginliyin və özünə inamın ifadəsi hiss olunur.

Heykəltəraşın tanınmış Norveç səyyahı və etnoqrafı Tur Heyerdala həsr etdiyi portreti  xüsusi qeyd etmək lazımdır. Tur Heyerdalın portreti Şəki şəhərinin Kiş kəndində yerləşən Alban məbədinin yanında yerləşir. Bir-neçə dəfə Azərbaycanda olan səyyah Şəkiyə gəlmiş və bu məbədi ziyarət etmişdir.

Yeni yaradılan plastik nümunələr arasında Hüseyn Haqverdi və Əhməd Salikovun portretləri özünəməxsus plastik həllinə görə maraq doğururlar. Qənaətimizcə, Hüseyn Haqverdinin “Bəstəkar Üzeyir Hacıbəyli” (2000) əsəri bu vaxta qədər görkəmli musiqiçiyə həsr olunmuş portretlərdən bilavasitə ekspressivliyinə görə köklü şəkildə fərqlənir. Əhməd Salikovun yaratdığı “Üzeyir

Hacıbəyli" (1995) əsəri isə bədii-psixoloji tutumuna görə kifayət qədər fərqlidir. Mərmərdən hazırlanmış portretdə real-gerçəkçi ifadəyə üstünlük verən müəllif bəstəkarın duyğulandırıcı surətini yaratmışdır.

Əhməd Salikovun müstəqillik dövrü yaradıcılığında portret janrı geniş yer tutub. Bunu onun ərsəyə gətirdiyi məhur adamların obrazları da təsdiqləyir. Bu mənada "Məhəmməd Füzuli" (1995), "Məhəmmədhüseyn Şəhriyarın portreti" (1995), "Aleksandr Sergeyeviç Puşkin" (1998) və "Səttar Bəhlulzadə" (2014) əsərlərinin adını çəkmək olar.

II fəslin ikinci yarımfəsli "Dəzgah heykəltəraşlığında plastik ifadə təmayülləri" adlanır. 1991-ci ildən başlayaraq bu günümüzə kimi davam edən ideologiyasızlıq mərhələsində yaşlı nəslin yaradıcılığına xas olan ənənəvi dəst-xəttin qaldığı görünsə də, yaradılan yeni əsərlərdə "sosialist realizmi"nin aparıcı yaradıcı tendensiyalarından biri olan patetik mövzu və ifadələrin yoxluğu qabarıq görünməkdədir. Orta nəsil və sənət yoluna yenicə qədəm qoyan gənclərin yaradıcılıq axtarışlarında kəskin mövzu və bədii ifadə dəyişikliyinə rast gəlmək mümkündür. Bu mövzu rəngarənliyi həmçinin heykəltəraşlarımızın müxtəlif nəsillərinin təmsilçilərinə ərsəyə gətirdikləri əsərlərdə öz hiss və duyğularını müxtəlif əhval ruhiyyədə ifadə etmək imkanı vermişdir.

Çağdaş Azərbaycan heykəltəraşlığında özünəməxsus ifadə vasitələri və dəst-xətti ilə seçilən Teyub Yusifovun yaratdığı dəzgah heykəltəraşlığı nümunələri arasında ovqat ifadəsinə yönəli əsərlər kifayət qədərdir. "Musiqi" (1998), "Skripkaçı" (1996), "Cavanlıq" (1993), "Rəssam və model" (1995), "Fəryad" (1999), "Gərginlik" (1997), "Həyatın anları" (1997), "Ovçu" (1999), "Eşq" (1996), "Üzsüzlük" (1996) və s. plastika nümunələri bu qəbildəndirlər.

Yaradıcılığını həm Azərbaycanda, həm də qonşu Türkiyədə davam etdirən Səid Rüstəmin müstəqillik illərində yaratdığı əsərlərdə özünəməxsus plastik görüntü vardır. Onun bu heykəllərdə nümayiş etdirdiyi plastika rəngarəngliyini heç şübhəsiz Azərbaycan heykəltəraşlığının müasir mərhələsinin inkişafına layiqli töhfə hesab etmək olar. Bu mənada "İbn Sina" (1995), "Son" (1998), "Fateh" (1999), " I Süleyman Qanuni" (2000), "Memar Sinan" (2000), "Alparslan Türkeş"

(2000), “Kaman çalan qız” (2000), “Rəssam” (2000), “Dədə Qorqud” (2003), “Atatürk” (2005),“Rəssam” (2000), “İlahi güc” (2005),“Özümdən qaçış” (2006), “Heydər Əliyev” (2008), “Vətən sevgisi” (2009) və s. adını xüsusi qeyd etmək lazımdır. Heykəltəraşın müxtəlif illərdə ərsəyə gətirdiyi “And”, “Adəm və Həvva”, “Ruhun yoxa çıxması”, “İztirab”, Uğur böcəyi”, “Ruhlar”, “Qara günəş” və s. relyefləri tamaşaçısını duyğulandırmaq gücündədir.

Heykəltəraşlarımızın plastik ifadə təmayüllərini gəncliyin simasında, çox vaxt isə musiqiçi və idmançıların simasında əks etmələri də müstəqillik dövrü dəzgah heykəltəraşlığının səciyyəvi cəhətlərindəndir. Özü də bu yanaşmaya tişə ustalarının müxtəlif nəsillərinin yaradıcılığında rast gəlmək mümkündür. Bu mənada Akif Əsgərov, Natiq Əliyev, Teyub Yusifov, Sevil Süleymanova, Rəcəb Müslümov, Hökumə Səfərli, Nurlan Məmmədov, Məmməd Rəşidov, Azad Əliyev, Xaqan Əhmədov, Vüqar Quliyev və s. yaratdıqları əsərlərin adlarını çəkmək olar.

Akif Əsgərovun “Gəncliyin gözəlliyi” (2008) əsərində yeni nəslin daşıdığı mənəvi-psixoloji xüsusiyyətlər qız fiqurunun timsalında ifadə olunmuşdur. Ayaqlarını çarpazlayan və əllərini belinə qoyaraq daşıdığı gözəlliyi sərgiləyən gəncin obrazında duyulası təravət mövcuddur. Heykəltəraş özüməməxsus dəst-xəttinin ifadəsi olan detal incələmələri ilə bütünlükdə obrazın oynaqlığına nail ola bilmişdir. Tunc materialının faktura oynaqlığı yaratmaq imkanlarından bacarıqla istifadə edən müəllif gəncliyə xas olan müsbət keyfiyyətlərlə əsərə yaddaqalan plastik görkəm vermişdir.

Sevil Süleymanovanın “Qız portreti” (2005), “Virtuoz” (2006), “Səhnə arxası” (2010) və s. əsərlərində insan psixologiyasından qaynaqlanan hisslərin plastik ifadəsini müşahidə etmək olar. “Səhnə arxası” əsəri pərdənin önündə düşüncəli tutumda təqdim olunan ifaçının həmin andakı əhval ruhiyyəsinin təsviridir. Məsuliyyətdən yaranan zahiri yaradıcı gərginliyini ifadə edən heykəltəraş, bütünlükdə dəfələrlə bu anı yaşamış sənət adamlarının yaddaqalan obrazını yaratmağa nail olmuşdur.

Nurlan Məmmədovun “Yuyunan qız” (2011), “Düşüncə” (2012), “Yaz yağışı” (2012), “Mələk” (2013), "Gimnast" və s. əsərlərində həm real, həm də

onun təxəyyülünün nəticəsi olan obrazlar özünəməxsus plastik həll ilə yanaşı, bilavasitə daşıdıqları məna yükünə görə də diqqəti cəlb edir.

Yekun olaraq demək olar ki, müstəqillik dövründə bütün mənalarda yenilənən Azərbaycan dəzgah heykəltəraşlığı öz inkişafını ilk növbədə arzulanan mövzu və janr rəngarəngliyi ilə, tamaşaçının arzuladığı plastik həll vasitələri ilə davam etdirdi. Müxtəlif nəsil təmsilçilərinin yaratdıqları heykəltəraşlıq nümunələri sünilikdən və patetikadan uzaq, müəllif səmimiyyətinin ifadəsi olan əsər kimi qəbul olundu.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. “Müstəqillik dövründə Sahib Quliyevin yaradıcılığında dəzgah heykəltəraşlığı" / Təsviri və Dekorativ-tədbiqi sənət məsələləri jurnalı. Azərbaycan Xalça Muzeyi. № 2, Bakı - "Təknur" - 2014, s. 39-43.

2. "Arif Qazıyevin müstəqillik illərində yaratdığı dəzgah heykəltəraşlıq nümunələri" / Təsviri və Dekorativ-tədbiqi sənət məsələləri jurnalı. Azərbaycan Xalça Muzeyi. № 3-4, Bakı - "Təknur"- 2014, s. 74-79.

3. "Müstəqillik illərində Fazil Nəcəfovun yaradıcılığında dəzgah heykəltəraşlıq əsərləri" / Bakı Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı №3. Bakı, 2015. s. 193-196.

4. "Место портретного жанра в станковой скульптуре Азербайджана" / Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. Материалы II Международной научно-практической конференции. 23-24 апреля 2015 года. Пятигорск. с. 239-244.

5. "Поиски жанра в станковой скульптуры Азербайджана в период независимости." / Журнал "Поиск", Казахстан №4, 2015. с. 133-138.

6. "Heykəltəraş Səid Rüstəmin müstəqillik dövrü yaradıcılığı" / "Mədəniyyət.AZ" -9. 2015 / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, s. 62-65.

7. "Heykəltəraş Xanlar Əhmədovun yaradıcılığında Xocalı faciəsinin əksi" / AMEA, Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. "Axtarışlar" (elmi toplu) Cild 4, № 2, Naxçıvan, 2015, s. 122-125.

***Окюма Аслан гызы Сафарли Агасой***

# СТАНКОВАЯ СКУЛЬПТУРА АЗЕРБАЙДЖАНА В ПЕРИОД НЕЗАВИСИМОСТИ

## Р Е З Ю М Е

Диссертационная работа посвящена исследованию образцов станковой скульптуры, созданных за годы независимости Азербайджана. Исследовательская работа состоит из введения, двух глав, четырёх подглав, заключения, списка литературы и альбома иллюстраций.

**Во введении** даны сведения об актуальности темы, степени изучения, цели и задачах, методологических основах, объекте и предмете исследования, в том числе о научных новшествах работы, теоретической и практической значимости, апробации, структуре и объёме.

**Первая глава – «Поиски жанра в станковой скульптуре периода независимости»** посвящена творческим поискам, нашедшим отражение в творчестве современных скульпторов Азербайджана. Подчеркивается, что представители различных поколений скульпторов в период независимости республики обращаются к новым темам, включающим события и образы исторического прошлого страны. Анализу подвергаются художественно-эстетические особенности пластических образцов, выполненных из различных материалов.

**Вторая глава – «Поиск формы и художественного выражения в станковой скульптуре периода независимости»** рассматривает эволюцию портретного жанра исследуемого периода, где нашли отражение психологические образы, основанные на личных наблюдениях мастеров резца. Исследуется тематические и образно-выразительные решения пластических образцов, созданных различными поколениями скульпторов.

**В заключении** подводятся итоги исследованию.

***Hokuma Aslan Safarli Aghasoy***

# BENCH SCULPTURE OF AZERBAIJAN DURING INDEPENDENCE PERIOD

## S U M M A R Y


The dissertation work has been devoted to the research of examples of bench sculpture created during years of independence of Azerbaijan. The research work consists of introduction, two chapters, 4 half-chapters, conclusion, literature list and album.

The information on the actuality of the subject, study rate, goals and objectives, methodological basis, object and subject of the research, as well as scientific innovation of the work, theoretical and practical importance, approbation, structure and volume was given in introduction.

**The First Chapter** was named as "**Searches of genre on bench sculpture of independence period"** and search of creativity of sculptors which dates back to independence period, the appeal to the new themes of representatives of different generations in the field of sculpture, as well as artistic and aesthetic features of works created by using of different materials was researched in this chapter. The plastic models reflecting the near and distant historical events and personalities of Azerbaijan were widely analyzed.

**The Second Chapter** was named as **"Search for form-figure and expression on bench sculpture of independence period"** and evolution of portrait genre during independence period, mostly the reflection of psychological stress on characters by artisans with referring to life observations was analyzed. As well as there were reflected the search for a sharp subject and artistic expression in creation search of the middle generation and the youth, who are in the beginning of the path of the new art, the colorfulness of subject on works created by them, expression of their emotions and feelings under various mood.

The conclusion of research was given in conclusion section.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

---

*На правах рукописи*

**ОКЮМА АСЛАН гызы САФАРЛИ АГАСОЙ**

# СТАНКОВАЯ СКУЛЬПТУРА АЗЕРБАЙДЖАНА В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Специальность: 6215.01 – «Изобразительное искусство»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии по искусствоведению

**БАКУ – 2016**